www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-12 (1795) 28 iyun 2024-cü il



## Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri ATU-nun rektoru ilə görüşüb

### Təhsil sahəsində qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılıb

səh. 2

## Buraxılış Dövlət imtahanları uğurla başa çatıb

səh. 3

## ATU-nun əməkdaşları Milli Məclisdə ictimai dinləmədə çıxış edib

səh. 3

## Tələbələrimizin elmi tədqiqatları beynəlxalq arenalarda

səh. 5




## Azərbaycan Tibb Universitetinin böyük uğuru

İlk dəfə "Times Higher Education Impact Rankings"də yer alan universitetimiz, ölkəmizin dövlət ali məktəbləri arasında lider mövqe tutub

səh. 2

## "Miqrasiya xidmətinə elektron əlçatanlıq" mövzusunda tədbir keçirilib

səh. 4

## Qəfil ölümlər: infarkt necə "gizlənir"?

*Tibb elmləri doktoru Sona Qəhrəmanova ürək-damar xəstəliklərinin əsas səbəblərini və çıxış yollarını açıqlayır*

səh. 7



## Səhiyyə Nazirliyinin kollektivi Ulu Öndərin və şəhid həkimlərin məzarlarını ziyarət edib

səh. 2

## Səhiyyə Nazirliyinin kollektivi Ulu Öndərin və şəhid həkimlərin məzarlarını ziyarət edib



**Ümummilli Lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

Tibb işçilərinin peşə bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, nazirliyin Aparatı və tabeliyindəki müəssisələrin rəhbər şəxsləri, o cümlədən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Həmçinin görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Daha sonra İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilib. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan həkimlərin əziz xatirəsi anılaraq, məzarları üzərinə tər güllər düzülüb.

Qeyd edək ki, Vətən müharibəsində 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb. 11 həkim, 7 feldşer və 26 tibbi təlimatçı olmaqla ümumilikdə 44 tibb işçisi qəhrəmancasına şəhid olub.

## ATU-nun klinikalarına rəhbərlər təyin olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yeni direktor və baş həkim təyin edilib.**

Klinikanın direktoru vəzifəsinə III Cərrahi xəstəliklər kafedrasının dosenti Əsədulla Sultanov, baş həkim vəzifəsinə isə Neyrocərrahiyyə kafedrasının dosenti, TCK-nın Neyrocərrahiyyə şöbəsinin müdiri Cəmil İskəndərov təyin olunublar.

Yeni direktoru ATU-nun rektoru, professor Gəray Gəraybəyli kollektivə təqdim edib.

* * *

Tədris Stomatoloji Klinikanın direktoru vəzifəsinə müvəqqəti olaraq İmran Ağayev təyin olunub.

Yeni direktoru kollektivə ATU-nun rektoru, professor Gəray Gəraybəyli təqdim edib.

* * *

Tədris Terapevtik Klinikanın direktoru vəzifəsinə isə I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov təyin olunub.

Yeni rəhbəri kollektivə ATU-nun rektoru, professor Gəray Gəraybəyli təqdim edib.

# Azərbaycan Tibb Universitetinin böyük uğuru

### İlk dəfə "Times Higher Education Impact Rankings"də yer alan universitetimiz, ölkəmizin dövlət ali məktəbləri arasında lider mövqe tutub

**Azərbaycan Tibb Universiteti ilk dəfə olaraq "Times Higher Education Impact Ranking" reytinq cədvəlində yer alıb. Bu siyahı BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini tətbiq etməyi bacaran və bu işdə uğur qazanan universitetləri müəyyənləşdirir.**

Universitetimiz reytinq cədvəlində sağlamlıq üzrə göstəriciləri müəyyənləşdirən SDG 3 – "Good health and wellbeing" kateqoriyası üzrə Azərbaycanda birinci yeri tutub. Burada ATU-nun ölkəmizdə səhiyyənin və tibb elminin inkişafına, təhsilin bütün pillələrində yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi, sağlam həyat tərzinin təşviqi, əhaliyə pulsuz tibbi yardım üzrə xeyriyyə aksiyalarının keçirilməsi və bununla da əhalinin rifah halının yüksəldilməsi işinə verdiyi töhfələr nəzərə alınıb.

Həmçinin dünya üzrə ali məktəblərin ümumi reytinqində (overall ranking) ATU ölkəmizin dövlət universitetləri arasında 1001-1500 yerlər intervalında lider mövqe tutub. ATU Dayanıqlı İnkişaf Məqsədlərinin 4 kateqoriyası üzrə iştirak üçün müraciət edib. Ümumi reytinq cədvəlinə qarşıya qoyulan bütün tələbləri yerinə yetirən ali məktəblərin adları daxil edilir.

Qeyd edək ki, 94 illik tarixə malik universitetimiz tibb təhsili sahəsində ardıcıl olaraq mükəmməlliyə və yeniliklərə can atır. Professor Gəray Gəraybəylinin rəhbərliyi ilə 2016-cı ildən ATU strateji planda nəzərdə tutulan məqsədlər üzrə transformasiyaya başlayıb. Bu plan artıq öz təhsil proqramının beynəlxalq akkreditasiyası da daxil olmaqla,




ciddi müsbət nəticələr verib.

Rektor G.Gəraybəyli universitetin davamlı inkişafa sadiqliyini vurğulayaraq deyib: "ATU innovasiya, mükəmməllik və sosial məsuliyyət mədəniyyətinin inkişafına sadiqdir. Bizim "Times Higher Education Impact Ranking"də iştirakımız səhiyyə, təhsil və davamlı inkişafın irəliləməsinə münasibətimizi əks etdirir. Universitetimizin bu nüfuzlu reytinq siyahısında yer alması onun Azərbaycan və ölkəmizin hüdudlarından kənarda səhiyyə və təhsilin gələcəyini formalaşdırmağa yönəlmiş aparıcı qurum kimi mövqeyini vurğulayır".

## Ali Attestasiya Komissiyasının sədri ATU-nun rektoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, professor Famil Mustafayev Azərbaycan Tibb Universitetinin qonağı olub. Qonağı ATU-nun rektoru, professor Gəray Gəraybəyli qəbul edib.**

Görüşdə ATU-nun nəzdində fəaliyyət göstərən elmlər doktoru və fəlsəfə doktoru müdafiələri üçün təşkil edilmiş Dissertasiya şuralarının sədrləri, müavinləri, elmi katiblər, eləcə də Dissertasiya Şurasının nəzdində müxtəlif ixtisaslar üzrə fəaliyyət göstərən elmi seminarların rəhbərləri, Ali Attestasiya Komissiyasının Tibb və əczaçılıq elmləri üzrə Ekspert Şurasının üzvləri iştirak ediblər.

Müxtəlif məsələlərin müzakirə olunduğu görüşdə Ali Attestasiya Komissiyasının Əsasnaməsində edilmiş dəyişikliklər, mövcud problemlər və onların həlli yolları, o cümlədən Dissertasiya şuralarının, müdafiələrin təşkili, keyfiyyətin daha da artırılması, təhsil sahəsində qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılıb. ATU-nun professorlarından Vaqif Şadlinski, Nazim Pənahov, Rəna Əliyeva, Lalə Allahverdiyeva, İbrahim İsayev və başqaları Ali Attestasiya Komissiyasının sədrinə aktual məsələlərlə bağlı suallar ünvanlayıb, professor F.Mustafayev isə onları cavablandırıb.

## ATU-nun rektoru imtahan prosesini izləyib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanların (OSKİ) gedişini izləyib.**

Rektor ilk olaraq Stomatoloji Klinikada imtahan prosesi ilə tanış olub, tələbələrlə fikir mübadiləsi aparıb. Daha sonra İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris Simulyasiya Mərkəzini ziyarət edən professor Gəray Gəraybəyli mərkəzdə müəyyən fənlər üzrə tədrisə cəlb olunmuş Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüşüb və onlarla söhbət edib. Klinik bacarıq imtahanlarının daim diqqət mərkəzində saxlanıldığını vurğulayan rektor, Azərbaycanda tibb təhsilində bu sınaq üsulunun ilk dəfə ATU-da tətbiq olunduğunu xatırladıb. Bildirib ki, tələbələr müvafiq fəndən bacarıq imtahanını



verdikdən sonra test üsulu ilə nəzəri imtahanlara keçid alırlar.

OSKİ imtahanları beynəlxalq standartlara cavab verən bir sınaq üsuludur və dünyanın əksər ölkələrinin tibb ixtisaslı, eləcə də digər ali məktəblərində tətbiq olunur. Universitetimizin müəllim və tələbələri də hər il təkmilləşən bu imtahan növünü dəstəkləyirlər.

## Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd olunub



**Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib.**

Tədbirdə Nəsimi rayon ərazisində yerləşən səhiyyə müəssisələrinin rəhbərləri və səhiyyə işçiləri iştirak edib. Əvvəlcə "Ulu Öndər Heydər Əliyev və Azərbaycan səhiyyəsi" adlı sənədli film nümayiş olunub.

Tədbiri giriş nitqi ilə açan Nəsimi rayon İH başçısı Asif Əsgərov səhiyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara ən xoş arzularını çatdıraraq şərəfli işlərində uğurlar arzulayıb. Bildirib ki, Ümummilli Liderin 2001-ci ildə imzaladığı sərəncamla bu bayramın təsis edilməsi onun həkimlik sənətinə münasibətini, tibb işçilərinin zəhmətinə yüksək dəyər verdiyini göstərir. İndi səhiyyəmizin hər ili, hər ayı irəliləyişlə, yeni-yeni uğurlarla yadda qalır. A.Əsgərov vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə müasir tibb ocaqları tikilir, təmirə ehtiyacı olan səhiyyə müəssisələri bərpa olunaraq müasir avadanlıqlarla təchiz edilir. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi daim diqqət mərkəzindədir.

Tədris Cərrahiyyə Klinikasının direktoru Əsədulla Sultanov Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ildən-ilə artdığını qeyd edib. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına imkan verir.

Daha sonra çıxış edən Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Sərdar Əsədov və başqaları dövlət başçısının səhiyyəyə göstərdiyi diqqət və qayğıdan bəhs edərək, ölkəmizdə bu sahənin müasir dünya standartlarına uyğun kadrlarla və yüksək səviyyədə maddi-texniki baza ilə təmin olunduğunu vurğulayıblar.

Tədbirin sonunda yubileyləri münasibəti ilə, eyni zamanda səhiyyə sahəsində xidmətlərinə görə bir qrup səhiyyə işçisinə mükafatlar təqdim olunub.

**İyunun 6-8-də Türkiyənin İstanbul şəhərində Pelvik Pain və Endometrioz dərnəyinin təşkilatçılığı ilə beynəlxalq tibb konqresi keçirilib.**




## Növbəti beynəlxalq tibb konqresi Bakıda keçirilə bilər

ABŞ, Yaponiya, İtaliya, Özbəkistan və s. ölkələrdən 450-dən çox mütəxəssisin qatıldığı konqresdə ATU-nun əməkdaşı, tibb elmləri doktoru Müşviq Həsənov da rəsmi dəvət əsasında iştirak edib. Konqresin təntənəli açılış mərasimində çıxış edən M.Həsənov iştirakçıları Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyətinin adından salamlayaraq, belə tədbirlərin praktik təbabətlə məşğul olan həkimlər ucun faydalı olduğunu bildirib. M.Həsənov növbəti konqresin Bakı şəhərində müştərək keçirilməsi təklifini irəli sürüb.

Daha sonra əməkdaşımız "Endometrioz mənşəli kəskin apendisit" adlı elmi məruzə ilə çıxış edib, o cümlədən digər məruzələr ətrafinda aparılan debatlarda aktiv iştirak edib.

# Buraxılış Dövlət imtahanları uğurla başa çatıb

## Böyük Elmi Şurada Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri hesabat verib

**İyunun 27-də ATU-nun Böyük Elmi Şurası tədris ilində sonuncu iclasını keçirib. Toplantını giriş nitqi ilə açan rektor, professor Gəray Gəraybəyli bildirib ki, bu günlərdə Azərbaycanın tibb ictimaiyyətinə ağır itki üz verib. Belə ki, Ortopedik stomatologiya kafedrasının məsləhətçi professoru Zöhrab Qarayev dünyasını dəyişib. Alimin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Sözünə davam edən rektor xatırladıb ki, bir neçə gün əvvəl ATU-nun üç klinikasının rəhbərləri dəyişdirilib. Belə ki, III Cərrahi xəstəliklər kafedrasının dosenti Əsədulla Sultanov Tədris Cərrahiyyə Klinikasına, I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov Tədris Terapevtik Klinikaya və t.ü.f.d. İmran Ağayev Tədris Stomatoloji Klinikaya direktor vəzifəsinə təyin olunublar.

Professor Gəray Gəraybəyli daha sonra gündəlikdə duran məsələləri diqqətə çatdırıb. O əlavə edib ki, artıq Buraxılış Dövlət imtahanları sona çatıb və bu tədris ili üzrə Dövlət Attestasiya Komissiyası da öz işini başa vurub. Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri və üzvləri Buraxılış Dövlət imtahanları zamanı apardıqları işin nəticələri haqqında hesabat vermək üçün Böyük Elmi Şuranın iclasına dəvət olunublar.

Bundan sonra ATU üzrə 2023/2024-cü tədris ilində Dövlət Attestasiya Komissiyasının fakültə sədrlərinin hesabatları dinlənilib və gənc mütəxəssislərin hazırlanması işində keyfiyyətin yüksəldilməsi istiqamətində universitet kollektivinin vəzifələri müzakirə olunub. Dövlət Attestasiya Komissiyasının I Müalicə-profilaktika fakültəsi üzrə sədri - Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, t.e.d., professor Cəmilə Qurbanova, II Müalicə-profilaktika fakültəsi üzrə - Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, t.e.d. Fuad Quliyev, Hərbi tibb fakültəsi üzrə - Milli Müdafiə Universiteti rektorunun elm üzrə müavini, Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru, general-mayor Arif Həsənov, İctimai səhiyyə fakültəsi üzrə - Milli Onkologiya Mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini, t.ü.e.d., professor Murad Məmmədov, Stomatologiya fakültəsi üzrə - Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, t.ü.f.d. Lalə Quliyeva, Əczaçılıq fakültəsində bakalavr mərhələsi üzrə - "Zeytun pharmaceuticals" məhdud məsuliyyətli cəmiyyətinin baş mütəxəssisi, b.e.n. Rüstəm Rüstəmbəyov hesabat məruzəsi ilə çıxış ediblər.

Komissiya sədrləri qeyd ediblər ki, Buraxılış Dövlət imtahanları mövcud əsasnaməyə uyğun olaraq problemsiz, şəffaf şəkildə aparılıb və burada nəzərdə tutulan bütün qaydalara əməl olunub. Bildirilib ki, bu il buraxılış imtahanları əvvəlki illərdə olduğu kimi, yüksək səviyyədə baş tutub və tələbələr obyektivlik şəraitində yüksək bilik nümayiş etdiriblər. İmtahanların rahat və şəffaf aparılması üçün yaradılan şəraitə görə universitetin rəhbərliyinə, şəxsən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürlərini bildirən komissiya sədrləri, eyni zamanda fakültə dekanlarının da imtahan prosesindəki aktiv fəaliyyətlərini yüksək qiymətləndiriblər. Onlar imtahanların gedişi zamanı heç bir neqativ hadisənin, həmçinin heç bir əsassız narazılığın baş vermədiyini diqqətə çatdırıblar.

Bundan başqa, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva 2023/2024-cü tədris ilində "Tibb bacısı işi" və "Fizioterapiya və tibbi reabilitasiya" ixtisasları üzrə IV kurs tələbələrinin ilk buraxılış imtahanlarının nəticələri haqqında çıxış edib. Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli isə fakültənin bakalavr mərhələsi üzrə istehsalat təcrübəsinin yekun bacarıq imtahanlarının və eləcə də fakültədə yeni standartlarla təhsil alan tələbələrin ilk istehsalat təcrübəsinə buraxılış imtahanları haqqında ətraflı məlumat verib. Hər iki dekan vurğulayıb ki, yüksək səviyyədə keçirilən peşə təcrübəsi üzrə imtahanlar OSKİ formasında 100 ballıq sistemlə qiymətləndirilib.

Hesabat çıxışlarına yekun vuran rektor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün təşəkkürünü bildirib.



Sonra 2024/2025-ci tədris ili üzrə Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubovun təqdim etdiyi tədris planı və Elmi katib, professor Nazim Pənahovun təqdim etdiyi iş planı Şura üzvlərinin diqqətinə çatdırılıb və hər iki sənəd təsdiqlənib.

Müxtəlif məsələlərə münasibət bildirən Şura II Cərrahi xəstəliklər kafedrasının professoru, t.e.d. Surxay Hadıyevin bu kafedrada məsləhətçi-professor vəzifəsinə seçilməsini və "Təbib" idman klubu ilə İdman Kompleksinin birləşdirilərək "Təbib" Tədris İdman Sağlamlıq Mərkəzi adı altında fəaliyyət göstərməsini təsdiqləyib.

Bundan başqa, Şura üzvləri 2023/2024-cü tədris ilindən etibarən ATU-nun ingilis dili bölmələrində aktiv dərs aparan, universitet tərəfindən təşkil edilmiş kurslarda B2 səviyyəsi göstərən və Tədris Departamenti tərəfindən hər semestr yenisi olmaq şərtilə təqdim olunan siyahı əsasında professor-müəllim heyətinə münasibətdə differensial əməkhaqqının tətbiq olunmasına münasibət bildirib.

Daha sonra II Müalicə-profilaktika fakültəsinin V kurs, 219A-8b qrup tələbəsi Uğur Uruç Mahbup oğlunun universitetə təhsilhaqqı borcunu 15 sentyabr 2024-cü ilə qədər ödəməsi qərarını verən Elmi Şura, Səhiyyə Nazirliyi tərəfindən Azərbaycan Tibb Universitetinə göndərilən əlyazmaları, həmçinin əməkdaşların hazırladığı dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyib.

Növbəti tədris ilində universitetdə bir sıra yeniliklərin olacağını nəzərə çatdıran rektor, professor G.Gəraybəyli ATU-nun çoxminli kollektivinə tətil dövründə mənalı istirahət arzulayıb.

**M.ƏLƏKBƏRLİ**

# ATU-nun əməkdaşları Milli Məclisdə ictimai dinləmədə çıxış edib

**Milli Məclisin Ailə, Qadın və Uşaq Problemləri və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda keçirdiyi ictimai dinləmədə tibb üzrə mütəxəssislər də iştirak edib.**

Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə, Tibbi reabilitasiya və fizioterapiya kafedrasının professoru Sədaqət Hüseynova, Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova iştirakçılar arasında olub.

T.Tağı-zadə çıxışında bildirib ki, erkən nikah və qohum evlilikləri bu gün də cəmiyyətimizin aktual problemi olaraq müzakirə edilməkdədir. Xüsusilə də qız uşaqlarının erkən nikaha daxil olmağa məcbur edilməsi, nəticə etibarilə onların cinsi istismara, fiziki və psixoloji zorakılığa məruz qalmasına və təhsildən uzaqlaşmasına səbəb olur. Eyni zamanda, tez-tez baş tutan qohum evlilikləri uşaqların genetik xəstəliklərlə doğulması riskini yüksəldir.



O qeyd edib ki, beynəlxalq səviyyədə qəbul edilmiş bir çox sənədlərdə dövlətlərin qarşısına nikaha hər iki tərəfin sərbəst və həqiqi razılığı ilə daxil olmasının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi tələbi qoyulur: "BMT-nin Uşaq Hüquqlarının Qorunması Komitəsinin mövqeyinə əsasən, "Uşaq hüquqları haqqında Konvensiya" uşaqların nişanlanması və nikahına da tətbiq edilir və konvensiyanın 24-cü maddəsinin 3-cü bəndinə görə, üzv dövlətlərin üzərinə uşaqların sağlamlığına xələl gətirə biləcək ənənələrin və adətlərin ləğv edilməsinə dair bütün tədbirləri həyata keçirmək öhdəliyi düşür. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri sırasında 2030-cu ilə qədər hər kəsin cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmin edilməsi, o cümlədən bütün qarşısı alına bilən ölüm hallarına son qoymaqla yeni doğulmuş uşaq və ana ölümlərinin azaldılması, ailə planlaması, bu sahədə məlumatlandırma və təhsil üçün əlçatanlığın təmin edilməsi kimi hədəflər müəyyən edilib".

Alim erkən yaşda hamiləlik və uşaq dünyaya gətirmənin qadınların sağlamlığı, o cümlədən reproduktiv sağlamlığı üçün yaratdığı acı nəticələrə də diqqət çəkib: "Erkən hamiləlik travma və vaxtından əvvəl doğuş riski kimi sağlamlıq problemlərinə səbəb olur. Belə ki, ananın arzuolunmaz hamiləlik keçirməsi bir çox xəstəliklərə yol açır. Bu uşaqlar erkən yaşda hamiləlik dövründə qalıcı fiziki və psixoloji problemlərlə üzləşirlər. Belə vəziyyətdə ana və uşaq ölümləri riskinin artdığı müşahidə edilməkdədir. Hələ fiziki və mənəvi yetkinliyə çatmamış qızların öz uşaqlıq dövrünü yaşamadan analığı qəbul etməsi acınacaqlı haldır. Çünki qızlar cinsi sağlamlıq haqqında kifayət qədər biliklərə malik deyillər və buna görə də hamiləlikdən qorunmaq yollarını bilmirlər. Odur ki, erkən yaşda evli qızların HİV infeksiyasına yoluxma ehtimalı daha yüksəkdir və bu uşaqlar doğum sonrası depressiyaya məruz qalırlar.

Valideynlər bilməlidir ki, "erkən nikah" ifadəsi təkcə qızların həyat yoldaşı ilə həyatlarını davam etdirmələri mənasına gəlmir. Bu, həm də onların ümidli gələcəyinin qarşısında qoyulan maneə kimi qəbul edilməlidir".

T.Tağı-zadə qan qohumluğuna əsaslanan nikahlar nəticəsində doğulan uşaqların sağlamlıq problemlərinə də toxunub, onlar arasında xeyli sayda anadangəlmə qüsurların baş verdiyini deyib: "Ən çox rast gələnən xəstəliklərdən biri əqli geriliyə yol açan fenilketonuriyadır. Bu sıradan olan xəstəliklərə inkişaf pozğunluğu, zehni gerilik, kistik fibroz, o cümlədən göz, qulaq, əzələ-sinir, ürək-damar və şəkər xəstəlikləri, qan xəstəlikləri arasında isə talassemiya, hemofiliya və digərləri daxildir".

Professor S.Hüseynova öz çıxışında qohum evliliyi və onun fəsadlarından bəhs edərək bu problemin Azərbaycan üçün də aktual olduğunu nəzərə çatdırıb. Əlavə edib ki, şəxslər arasındakı qan bağlılığının yaxınlıq dərəcəsi artdıqca, fəsadların meydana çıxma ehtimalı daha da yüksəlir. İrsi xəstəliklər həm anadangəlmə, həm də uşaq doğulandan sonra müxtəlif yaş dövrlərində özünü büruzə verə bilər.

"Odur ki, aralarında qan bağı mövcud olan şəxslərin nikahdan öncə həkim-genetiklə ətraflı məsləhətləşmə aparması vacibdir. Həkim-genetik xromosom xəstəlikləri olan ailələrin tibbi-genetik məsləhəti, diferensial diaqnostikanın aparılması və ailəvi-geneoloji analizin keçirilməsi kimi çox əhəmiyyətli öhdəlikləri yerinə yetirərək fəsadların qarşısını mümkün qədər almağa çalışacaq.

Təəssüflər olsun ki, bir çox ailələr yalnız xəstə uşaq dünyaya gəldikdən sonra problemin ciddiliyini başa düşür. Belə xəstə uşaqlar həm ailə, həm dövlət, həm də tibb strukturları üçün ciddi yükə çevrilir. Bu səbəbdən qohum evliliyin qarşısını almaq üçün əhalini məlumatlandırmaq, preventiv tədbirlər görməklə yanaşı, bu problemin hüquq müstəvisində təsbit olunması da vacibdir" - deyə o, fikirlərini yekunlaşdırıb.

# Həmkarlar İttifaqı Komitəsində fəal tələbələrlə görüş olub

**Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov universitetimizin mədəni həyatında aktiv iştirak edən və tədbirlərin keçirilməsinə öz töhfəsini verən fəal tələbələrlə görüşüb.**



O, HİK nəzdində fəaliyyət göstərən və tələbələrimizdən ibarət olan “Çinar” rəqs və “Şəfa” xalq çalğı alətləri ansambllarının bütün tədbirlərdə öz peşəkar çıxışları ilə fərqləndiyini vurğulayıb. Xatırladıb ki, HİK-in təşkilatçılığı ilə keçirilmiş, Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş “Bu ellərin soyu birdir, kökü bir” adlı təntənəli ədəbi-bədii gecəyə də bu ansambllar öz çıxışları ilə xüsusi rəng qatıb.

Görüşə qatılan fəal tələbələrin universitetin ictimai həyatındakı rolunu yüksək qiymətləndirən komitə sədri onları Milli Qurtuluş Günü, müqəddəs Qurban bayramı və Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin və Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Arif Mərdanovun adından təbrik edib.

C.Qasımov hər iki ansamblın üzvlərinə “Məzun günü”ndə təqdim edəcəkləri çıxışla bağlı tövsiyələrini verib, həmçinin məzun olan bir neçə üzvün mükafatlandırılacağını diqqətə çatdırıb.

Görüşün sonunda tələbəlik illərində xüsusi istedadları ilə seçilən gənclərin gələcəkdə həm də səhiyyənin ən yaxşı nümayəndələri olacağına əminliyini bildirən HİK sədri onların hər birinə uğurlar arzulayıb.

# 2 il üzərində işlənilən tədqiqatın nəticələri dərc olunub

**Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, t.ü.f.d. Taryel Ömərovun həmmüəllifi olduğu elmi məqalə nüfuzlu beynəlxalq yayım şəbəkələrində dərc olunub.**

Tanınmış cərrahın verdiyi məlumata görə, nəşr edilən "Global 30-Day Morbidity and Mortality of Primary Bariatric Surgery Combined with Another Procedure" protokol məqaləsi üzərində 2 il ərzində 162 cərrah birgə işləyib. Müəlliflər 32 dövlətdən olan 75 böyük elmi mərkəzi təmsil ediblər. Bunlar arasında ATU-nun I Cərrahi xəstəliklər kafedrası, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyi də olub.

T.Ömərovun elmi məqalələri 2010-cu ildən etibarən Springer, Elcevier, Nature beynəlxalq yayım şəbəkələrində dərc olunmaqdadır. Lakin beynəlxalq elmi işçi qruplarının, multidisiplinar çoxmərkəzli tədqiqatların aparılmasına 2017-ci ildən etibarən start verilib. Yuxarıda qeyd edilən tədqiqat isə azərbaycanlı tibb mütəxəssislərinin elm sahəsində növbəti uğurudur.

# Əməkdaşlarımız beynəlxalq konqresdə öz təcrübələrini bölüşüb

**Qardaş Türkiyə Cümhuriyyətinin İstanbul Teknik Universitetində Balkan ORL, Mərkəzi və Qərbi Asiya Qulaq, burun, boğaz və Baş-boyun cərrahiyyəsi assosiasiyalarının birgə konqresi keçirilib.**



Tədbirdə qeyd olunub ki, hazırda başqa ölkələrlə birlikdə təcrübə mübadiləsinin aparılması geniş yayılmış elmi metoda çevrilib. Bildirilib ki, Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan və digər dost ölkələrdən olan mütəxəssislər bu cür imkanlardan yararlanmalı və bu əməkdaşlığı ən yaxşı şəkildə davam etdirməlidirlər.

Konqresdə ATU-nun Otorinolarinqologiya kafedrasının müdiri, professor Vəfa Pənahian və kafedranın dosenti Sara Ağaların da məruzələri dinlənilib. Məruzəçilərimiz dünyanın nüfuzlu alimlərinin qatıldığı beynəlxalq panellərdə müzakirələr zamanı öz təcrübələrini paylaşaraq, ölkəmizi layiqincə təmsil ediblər.

# “Miqrasiya xidmətinə elektron əlçatanlıq” mövzusunda tədbir keçirilib

**Azərbaycan Tibb Universitetində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “Miqrasiya Sahəsinin İnkişafı" İctimai Birliyinin təşkil etdiyi "Azərbaycanda təhsil alan əcnəbi tələbələrin cəmiyyətə inteqrasiyası" layihəsi çərçivəsində “Miqrasiya xidmətinə elektron əlçatanlıq” mövzusunda tədbir keçirilib.**



Tədbiri giriş nitqi ilə açan ATU-nun Xarici tələbələrlə iş üzrə dekanı Natiq Bayramov bildirib ki, ilk dəfədir görüşə 200-dən artıq iştirakçı qatılıb. O qeyd edib ki, tədbir Milli Qurtuluş Gününə təsadüf edir. Bu əlamətdar tarixlə Azərbaycanın dövlət müstəqilliyinin, xalqımızın isə gələcək xoşbəxt həyatının əsası qoyulub.

Sonra Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sözünə davam edən N.Bayramov universitetimizdə əcnəbi tələbələrlə təşkil olunan iş barədə məlumat verib. Bildirib dekanlığın əməkdaşları vaxtaşırı əcnəbi tələbələrlə görüşür, onları narahat edən məsələlər ətrafında müzakirələr aparır, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün aidiyyəti dövlət orqanları ilə görüşlər təşkil edir və onları miqrasiya xidmətindən istifadə qaydaları ilə bağlı daim məlumatlandırır.

Bundan sonra "Miqrasiya Sahəsinin İnkişafı" İctimai Birliyinin sədri Vidadi Fətullayev miqrasiya sahəsində əcnəbi tələbələrin hüquqi maarifləndirilməsi işinin əhəmiyyətini qeyd edib və belə görüşlərin ali təhsil müəssisələrində mütəmadi keçirilməsinin zəruriliyi barədə fikirlərini bölüşüb. O vurğulayıb ki, əcnəbi tələbələrin sayına görə ATU respublikada həmişə lider olub və indi də bu mövqeyi qoruyub saxlayır.

Tədbirdə çıxış edən Dövlət Miqrasiya Xidmətinin Hüquqi təminat idarəsinin rəis müavini Xəyalə Abbasova və Miqrasiya proseslərinin təhlili idarəsinin rəis müavini Sunay Quliyev miqrasiya qaydaları, həmçinin bu sahədə elektron resurslardan istifadə bacarıqlarının artırılması ilə bağlı təqdimatlarla çıxış ediblər. Maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan natiqlər miqrasiya sahəsində tələbələrin yol verdikləri hüquqpozmalar barədə məlumatlar verib, mövcud qanunvericiliyin əsas tələbləri, əsasən də tələbələrin təhsil alması ilə bağlı vacib qaydaları görüş iştirakçılarının diqqətinə çatdırıblar.

Tədbirin sonunda əcnəbi tələbələrin olduğu yer üzrə qeydiyyatlarının aparılması, onlara müvəqqəti yaşamaq və iş icazələrinin verilməsi, eləcə də miqrantların hüquqları izah edilib. Əcnəbi tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Kafedra müdiri beynəlxalq konfransda əsas məruzəçi qismində iştirak edib

**Qazaxıstanın Almatı şəhərində Əl-Fərabi Qazax Milli Universitetinin (KazNU) 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Azərbaycan Tibb Universitetinin Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev “Tibbi bitkilər və təbii dərman tədqiqatları” üzrə beynəlxalq konfransın sədri, professor Canar Cenisin dəvəti ilə tədbirdə əsas məruzəçi qismində iştirak edib.**



KazNU-nun rektoru Canseyt Tuymebayev konfransı giriş nitqi ilə açaraq qonaqları salamladıqdan sonra Yaponiya, Özbəkistan, Tailand, Türkiyə, Malayziya, Hindistan, Pakistan, Qırğızıstan, Kipr, Cənubi Koreya, Portuqaliya, ÇXR və s. ölkələrdən gəlmiş alimlərin dərman bitkiləri və təbii dərman maddələri ilə bağlı apardıqları elmi-tədqiqat işlərinə dair məruzələri dinlənilib.

Konfransın bağlanış mərasimində əsas məruzəçilər mükafatlandırılıb və onlara sertifikatlar təqdim olunub.

# Türkmən tələbələrimiz Multikulturalizm Mərkəzində

**Azərbaycan Tibb Universitetində təhsil alan İraqdan olan türkmən tələbələr Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olublar.**



BBMM-in icraçı direktoru Rəvan Həsənov tələbələrə Azərbaycandakı multikultural və tolerant mühit haqda ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan Respublikasının Prezident İlham Əliyevin Fərmanı ilə 2014-cü ildə yaradılan BBMM beynəlxalq statusa malikdir və azsaylı xalqların mədəniyyətinin, dilinin, inanclarının qorunması istiqamətində çox mühüm layihələr həyata keçirir. Mərkəzin təşkilatçılığı ilə dünyanın nüfuzlu universitetlərində “Azərbaycan multikulturalizmi” fənni tədris edilir. İcraçı direktor əsrlərdir ki, multikultural dəyərlərin Azərbaycanda son dərəcə önəmli yer tutduğunu, burada müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin heç bir ayrı-seçkiliyə məruz qalmadan birgə yaşadıqlarını diqqətə çatdırıb.

ATU-nun Əcnəbi vətəndaşlarla iş üzrə dekanı Natiq Bayramov əcnəbi tələbələrin sayına görə universitetimizin ölkəmizin ali məktəbləri arasında lider mövqedə olduğunu bildirib. Universitetdə dünyanın 50-dən artıq ölkəsinin vətəndaşları təhsil alır, həkimlik peşəsinin sirlərinə yiyələnir. Dekan xarici tələbələrin qəbulu, onların təhsili üçün yaradılan şərait, universitetin beynəlxalq nüfuzunun daha da artırılması məqsədilə görülən işlər və digər məsələlərlə bağlı ətraflı məlumat verib.

Daha sonra tələbələr Mərkəzlə tanış olublar. Onları maraqlandıran suallar cavablandırılıb.

# Startap mövzusunda növbəti seminar baş tutub

**Elmi Departamentin Startap və konfrans şöbəsi ilə Tələbə Elmi Cəmiyyəti startap mövzusunda növbəti birgə seminar təşkil edib.**



Terapevtik stomatologiya kafedrasının dosenti Esmira Abbasova çıxış edərək vurğulayıb ki, belə seminarların təşkilində əsas məqsəd bu sahəyə marağı olan, bu istiqamətdə yeniliklər etmək istəyən tələbələri həvəsləndirmək və yol göstərməkdir.

Azərbaycan Memarlıq və İnşaat Universiteti Sənayenin təşkili və idarə olunması kafedrasının müəllimi, TEC sədri Günel İmamquliyeva tərəfindən təqdim olunan “Biznes kanvasının modelində müştəri kəşfi” adlı mühazirə iştirakçılar tərəfindən maraqla dinlənilib.

Təlimin sədr müavini, Startap və konfrans şöbəsinin koordinatoru, Terapevtik stomatologiya kafedrasının dosenti Ayət Cəfərova şöbənin fəaliyyəti və keçirilən təlimlərin əhəmiyyətindən danışıb. O qoyulan mövzular istiqamətində tədris olunan bilik və bacarıqların karyera inkişafındakı rolunu vurğulayıb.

Qeyd edək ki, mühazirə ATU-nun əməkdaşları və Stomatologiya fakültəsinin tələbələri üçün təşkil olunub.

# "Süd vəzi xəstəliklərində şüa-diaqnostika" mövzusunda konfrans keçirilib






**Tədris Cərrahiyyə Klinikasında "Süd vəzi xəstəliklərində şüa-diaqnostika" mövzusunda konfrans keçirilib. Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının təşəbbüsü, "Uptodate in Medicine" təşkilatının texniki dəstəyi ilə baş tutan tədbirdə tanınmış onkoloqlar, tibb mütəxəssisləri tərəfindən mövzu ilə bağlı müxtəlif aspektləri əhatə edən məruzələr səsləndirilib, müzakirələr açılıb.**

ATU-nun Onkoloji Klinikasının baş həkimi, Onkologiya kafedrasının dosenti Nigar Mehdiyeva açılış nitqi ilə çıxış edərək assosiasiyanın fəaliyyəti və əldə edilən nailiyyətlər haqqında ətraflı məlumat verib. Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının beynəlxalq əlaqələrini genişləndirdiyini, artıq təşkilatın Türkiyədə, Çində beynəlxalq şəbəkələrə üzv qəbul edildiyini bildirib. N.Mehdiyeva konfransın mövzusunun aktuallığını vurğulayıb və iştirakçılar üçün faydalı olacağına əminliyini qeyd edib. Həmçinin ölkələr arasında əməkdaşlığı gücləndirmək, onkoloji yardımda ən müasir diaqnostik və terapevtik prosedurların tətbiqini təşviq etməyin də əsas məqsədlər sırasında olduğunu bildirib.

Onkologiya kafedrasının dosenti Həqiqət Vəliyeva assosiasiya tərəfindən həyata keçirilən önəmli layihələr və gələcək planları haqqında məlumat verib.

Daha sonra Milli Onkologiya Mərkəzinin onkoloqu dr. Aysel Gəncəliyeva radioloqların süd vəzi xəstəliklərinin profilaktika, diaqnostika, müalicə və müşahidəsi dövründə multidissiplinar komandanın digər üzvlərindən gözləntiləri barədə danışıb. J.W.Goethe Frankfurt Universitet Klinikası Ginekologiya və ginekoloji onkologiya şöbəsinin onkoloqu dr. Xəyal Qasımlı süd vəzi xəstəliklərinin şüa-diaqnostikasında Almaniya təcrübəsini bölüşüb. Milli Onkologiya Mərkəzinin radioloqu, tibb üzrə fəlsəfə doktoru Anar Kazımov, ATU-nun Şüa diaqnostikası və radiologiya kafedrasının assistenti Günel Əliyeva və digərləri süd vəzi xərçənginin müalicəsində erkən diaqnostikanın əhəmiyyəti, vaxtaşırı tibbi müayinələrdən keçmənin vacibliyi, xəstəliyin qarşısının alınmasında müasir yanaşmalardan bəhs ediblər.

Konfransın sual-cavab sessiyasında iştirakçılar məruzələrdə səslənən elmi fikirlər, süd vəzi xəstəliklərinin müalicəsində tətbiq edilən yeni üsullar haqqında fikir mübadiləsi aparıblar. Çıxışlar zamanı süd vəzi xəstəliklərinin qarşısının alınmasında maarifləndirmə tədbirlərinin xüsusi əhəmiyyət daşıdığı bildirilib, onkoloji xidmətin təkmilləşdirilməsi ilə bağlı müəyyən təkliflər səsləndirilib.

# Tələbələrimizin elmi tədqiqatları beynəlxalq arenalarda

**Azərbaycan Tibb Universitetində elmi-tədqiqat işlərinə maraq göstərən tələbələr çoxdur və onlar təkcə yerli konfranslarda deyil, beynəlxalq səviyyəli konfrans və konqreslərdə də uğurla çıxış edirlər.**




Belə tələbələrdən biri də I Müalicə-profilaktika fakültəsinin IV kurs, 120A-4b qrup tələbəsi **Səma Hüseynlidir.** Keçən ilin oktyabr ayında ətrafındakı tələbə yoldaşlarının universitetə daxil olduqdan sonra görmə qabiliyyətlərinin zəifləməsi barədə şikayətləri onun diqqətini çəkib. Bu mövzunu qrup yoldaşı **Xətai Əzimli** ilə birlikdə araşdırmağa qərar verib. Oftalmologiya fənni müəllimi Tural Qəlbinurun rəhbərliyi ilə tədqiqat işinə başlayıblar. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində 200 tələbəni T.Qəlbinur, Ayan Məmmədxanova və Aysel Qəlbinurun rəhbərliyi altında müayinə edərək tədqiqat işi aparıblar. Həmin işin nəticələri haqqında çıxışları ATU Tələbə Elmi Cəmiyyətinin konfransında 2-ci yerə layiq görülüb. Həmçinin bu ilin 22-23 may tarixlərində Naxçıvan şəhərində keçirilən "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı"nda tədqiqatları münsiflər tərəfindən yüksək qiymətləndirilib.

Bundan əlavə, "The prevalence of refractive errors and factors associated with myopia among medical students at Azerbaijan Medical University" adlı elmi-tədqiqat işləri Tibb Elmləri Beynəlxalq Tələbə Konqresinə (İSCOMS) rəsmi dəvət alıb. Tədqiqatçı tələbələr 3-6 iyun tarixlərində həmin konqresdə ölkəmizi təmsil ediblər və onların məruzələri Çin, Səudiyyə Ərəbistanı, Almaniya və digər ölkələrdən olan iştirakçılar arasında xüsusi marağa səbəb olaraq bəyənilib. Həm mövzunun aktuallığı, həm də məruzəçilərin çıxışı münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilərək ən yaxşı elmi işlərdən biri kimi seçilib.

Hər iki tələbə-tədqiqatçı konfrans müddətində dünyaca məşhur həkimlərin və tibb alimlərinin leksiyalarını dinləmək fürsəti də qazanıb, workshoplarda uğurla iştirak edərək sertifikatlara layiq görülüblər.

* * *

**Eldar Baxşəliyev** isə II Müalicə-profilaktika fakültəsinin III kurs, 221A-1b qrup tələbəsidir. O, 3-6 iyun 2024 tarixlərində 31-ci Tibb Elmləri Beynəlxalq Tələbə Konqresində (ISCOMS) Farmakologiya kafedrasının professoru Vəli Əsmətovun elmi rəhbərliyi altında hazırladığı "Changes on sex hormones in the blood of white rats against the background of chronic clozapine intake" adlı elmi-tədqiqat işi ilə çıxış edib və qaliblər sırasına daxil olub.

Onun sözlərinə görə, farmakologiya sessiyasında müxtəlif ölkələrdən təqdim olunmuş elmi işlərin sayı 10-dan artıq idi. Qaliblərin sıralamasında Polşadan sonra Azərbaycanın adı çəkilib. 64 ölkənin dəvət olunduğu bu konfransın iştirakçıları ATU tələbəsinin elmi-tədqiqatına böyük maraq göstəriblər. Belə ki, çıxışından sonra bir neçə ölkədən müxtəlif nümayəndələr ona yaxınlaşaraq mövzu ilə bağlı fikir və mülahizələrini bölüşüblər. E.Baxşəliyev konfrans boyunca beynəlxalq dərəcəli tibb mütəxəssislərinin təşkil etdiyi kurslarda (workshop, patient lecture, keynote lecture və s.) da uğurla iştirak edib. Təşkilat komitəsinin üzvləri uğurlu elmi işinə görə tədqiqatçı tələbəyə təşəkkürlərini bildiriblər.

**Bu günlərdə "İnjuria" jurnalı və "İnjuria" hüquq platforması, Hüquq və İnsan Haqları İnstitutu, Almaniyanın Martin Luter Universiteti və Türkiyənin Tibb Hüququ İnstitutunun birgə təşkilatçılığı ilə ilk dəfə olaraq "XV Azərbaycan-Türk-Alman tibb hüququ simpoziumu" keçirilib.**

# Tibb hüququna dair Azərbaycan-Türk-Alman simpoziumu keçirilib

## Tədbirdə tibbi bioetikanın Azərbaycanda tarixi və inkişafına dair təqdimat olub



Simpoziumun əsas məruzəçiləri Almaniyada, Türkiyədə və Azərbaycanda çoxillik praktiki təcrübəyə malik olan aparıcı ekspertlər olub. Eyni zamanda tibb hüququ sahəsində fəaliyyət göstərən, əsasən tibb müəssisələrinin maraqlarının müdafiəsi üzrə ixtisaslaşmış hüquqşünaslar, alimlər, həkimlər, tibb işçiləri, dövlət orqanlarının nümayəndələri, tibbi xidmətin keyfiyyətini qiymətləndirən ekspertlər və məhkəmə orqanlarında çalışan mütəxəssislər simpoziumun işində yaxından iştirak ediblər.

Tədbirdə Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə "Tibbi bioetikanın Azərbaycanda tarixi və inkişafı" mövzusunda təqdimatla çıxış edib.

Alim Azərbaycanda tibbi etikanın XI əsrdən tədris olunduğunu qeyd edərək, Şamaxı şəhərində yaradılan ilk tibb məktəblərindən biri olan "Dar Al-Şəfa"da hələ o zamanlar təbiblərin öz tələbələrinə tibb sisteminin yüksək əxlaqi prinsiplər və insan sevgisi üzərində qurulduğunu öyrətdiklərini deyib.

T.Tağı-zadə Azərbaycanda müasir tibb təhsilinə bioetika fənninin inteqrasiyası və tətbiqi işində Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) fəaliyyətinə diqqət çəkib: "Bioetikaya dair tədris vəsaitlərinin Azərbaycan dilində nəşri və bir sıra digər tədbirlərin reallaşdırılmasında APA-nın o zamankı rəhbəri, akademik Adilə Namazovanın böyük əməyi olub, bununla Azərbaycanda bioetikanın aktuallığının artamasına zəmin yaranıb.

1999-2000-ci illərdə tərəfimizdən ABŞ təhsil qrantı qazanılıb, tibbi bioetika üzrə təhsil proqramı və tədris materialları tərtib olunub. Proqram UNESCO-nun 11-ci sessiyası, Bakı Humanitar Forumu və digər mötəbər beynəlxalq tədbirlərdə, eləcə də Təhsil Nazirliyində təqdim edilib. Bundan əlavə, tibb təhsili tədris olunan universitet və kolleclərdə tibbi bioetikanın tədrisi metodikası üzrə tədbirlər keçirilib, tədris proqramı əsasında Azərbaycan Tibb Universitetində müəllimlər üçün təlimlər təşkil olunub. Hazırda ATU-nun hər bir fakültəsində bioetika fənni 3 dildə tədris olunur".

O xüsusilə uşaq hüquqları haqqında məlumatlılığı artırmaq məqsədilə APA, EPA və UNEPSA-nın birgə layihəsi əsasında nəşr olunan "Uşaq hüquqları dünya xalqlarının nağıllarında" kitabının imtiyazlı uşaqlar üçün təşkil olunan tədbirlərdə təqdim edildiyini bildirib. Natiq onu da vurğulayıb ki, bioetika fənni məhz həkimlər tərəfindən innovativ metodika ilə tədris olunmalıdır.

Millət vəkilləri, Türkiyə və Almaniyadan ekspertlərin də qatıldığı "XV Azərbaycan-Türk-Alman tibb hüququ simpoziumu"nun məqsədi dünyada və ölkəmizdə yeni biotexnoloji və biotibbi fəaliyyətin həyata keçirilməsi və bu istiqamətdə müvafiq tədqiqatların aparılması zamanı aktuallığı ilə səciyyələnən insan hüquq və azadlıqlarının müdafiəsinin təmin olunmasına dəstək göstərməkdir.

Qeyd edək ki, simpoziumda Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü Aidə Bəndəliyeva da "GMO məhsullarının ekosistemə, sağlamlığa olan zərərli təsirləri və onların hüquqi tənzimlənməsi" mövzusunda çıxış edib.

# İnvaziv kardioloqlar Tədris Cərrahiyyə Klinikasında toplanıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında invaziv kardioloqların aylıq Bakı toplantısı keçirilib. "STEMİ zamanı perkutan koronar müdaxilə" mövzusunda keçirilən tədbirdə Azərbaycan Kardiologiya Cəmiyyətinin İnvaziv işçi qrupunun üzvləri iştirak edib.**



Ege hospitalın kardiologiya şöbəsinin müdiri, t.ü.f.d. Ülvi Mirzoyev açılış nitqi ilə çıxış edərək ənənəvi aylıq toplantının proqramını açıqlayıb. Tədris Cərrahiyyə Klinikasının (TCK) Ürək kateterizasiyası və angioqrafiya laboratoriyasının müdiri, dosent Qalib İmanov, DTX-nın hospitalının invaziv kardioloqu Sərdar Abdullai və MediStyle hospitalın həkim-kardioloqu Gülanə Ağayevanın moderatorluğu ilə keçən tədbirdə ST - yüksəlməli miokard infarktının idarə edilməsi, bu zaman yaranan problemlərə müxtəlif metodlarla müdaxilə yollarından bəhs edilib.

TCK-nın kardioloqu Aqil Allahverdiyev "ST - yüksəlməli miokard infarktının idarə edilməsi üçün 2023 ESC Rəhbər Tövsiyələri", Bakı Sağlamlıq Mərkəzinin kardioloqu Röyal Hacıməmmədov "Kəskin RCA lezyonuna primer perkutan müdaxilə", Mediland hospitalın invaziv kardioloqu Vüqar Zamanov "Cx və high-OM osteal lezyonlarını əhatə edən, kompleks və kəskin total tıxalı osteal LA lezyonuna primer perkutan müdaxilə" mövzusunda klinik hal təqdimatları ilə çıxış ediblər.

Toplantıda TCK, Bakı Sağlamlıq Mərkəzi, Mediland hospitalın həkim-mütəxəssisləri iştirak ediblər.

# Əməkdaşımız Rusiyada elmi-praktik konfransda çıxış edib

**İyunun 14-15-də Rusiya Homeopatik Assosiasiyası, Ənənəvi və Komplementar Təbabətin Milli Assosiasıyası və digər qurumların təşkilatçılığı ilə Sankt-Peterburq şəhərində “Homeopatiyanın aktual problemləri. Praktik səhiyyədə homeopatiya metodunun yeri və imkanları” mövzusunda XXXIV Ümumrusiya elmi-praktik konfransı keçirilib.**



ATU-nun Farmakologiya kafedrasının dosenti Sevinc Məhərrəmova tədbirdə “Azərbaycan praktiki səhiyyəsində ənənəvi tibbin inteqrasiyasının inkişafı və gücləndirilməsi üçün aparılan tədbirlər” mövzusunda məruzə ilə çıxış edib. S.Məhərrəmova inteqrativ təbabətin bir qolu olan homeopatiyanın beynəlxalq inkişafı və respublikamızda hazırki vəziyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib. O, homeopatik dərmanlarla münasibətlərin xüsusiyyətlərini nəzərə almaqla yeni dərman vasitələrinin yaradılması, yerli istehsalın inkişafı, homeopatik əczaçılıq sahəsində aparıcı mütəxəssislərin təcrübəsinin öyrənilməsi və ixtisaslı kadrların hazırlanmasının aktuallığı məsələlərinə də toxunub, ona ünvanlanan sualları ətraflı şəkildə cavablandırıb.

# Xəstəxanadaxili infeksiyalara həsr olunmuş beynəlxalq konfrans keçirilib

**Dövlət Gömrük Komitəsinin Tibbi xidmət idarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı və “Nəsil Qrup” MMC şirkətinin birgə təşkilatçılığı ilə "Xəstəxanadaxili infeksiyaların idarə olunması: sepsis və antibiotikterapiya" mövzusunda beynəlxalq konfrans keçirilib.**




Konfransda Azərbaycan Tibb Universitetinin Epidemiologiya və biostatistika kafedrasının əməkdaşları - kafedranın tədris hissə müdiri Leyla Əhmədzadə, Zəminə Hüseynova, Əzimə Şıxəliyeva, Flora Tağıyeva və Vaqif Vəkilov iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Tibbi xidmət idarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev mövzunun aktuallığına dair fikirlərini bölüşüb. O, Elmi-Təcrübi və Tədris Mərkəzinin il ərzində mütəmadi olaraq yerli mütəxəssislərin beynəlxalq təcrübədən faydalanması üçün müxtəlif elmi fəaliyyətlər təşkil etdiyini qeyd edib.

Daha sonra Mərkəzi Gömrük Hospitalının rəisi, baş həkim Bəxtiyar Musayev hospitalda xəstəxanadaxili infeksiyalarla mübarizə istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən İnfeksiyaya Nəzarət Komissiyasının fəaliyyəti barədə qısa məlumat verib.

Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin sektor müdiri Vüsalə Səfərova və TƏBİB-in Tibbi xidmətlərin inkişafı departamentinin rəhbəri Yaqut Qarayevanın çıxışlarından sonra konfrans öz işini panel sessiyası ilə davam etdirib.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkim-mikrobioloqu Leyla Həşimova və Tibbi mikrobiologiya və immunologiya kafedrasının dosenti, t.ü.f.d., Analitik Ekspertiza Mərkəzinin eksperti Həyat Əliyeva “Sepsisin diaqnostikasına müasir yanaşma” mövzusunda təqdimatla çıxış ediblər və auditoriyanı maraqlandıran sualları cavablandırıblar.

# Ege Universitetində elmi-tədqiqat işi icra olunub



**II Uşaq xəstəlikləri kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Sevinc Muxtarova Türkiyənin Ege Universitetində elmi-tədqiqat işini icra edib. O, universitetin Tibb fakültəsinin Uşaq sağlamlığı və xəstəlikləri kafedrasının nəzdində olan Neonatologiya bölməsində üç ay ərzində araşdırmalar aparıb.**

“Yenidoğulanlarda ağciyər patologiyalarının diaqnostikasında ultrasəs müayinəsinin və genetik markerlərin rolu” mövzusundakı tədqiqat Azərbaycan Tibb Universiteti və Ege Universiteti tərəfindən ortaq icra edilib.

Araşdırma müddətində tənəffüs çatışmazlığı olan, vaxtında və vaxtından əvvəl doğulan uşaqların ağciyərinin ultrasəs müayinəsi aparılıb, iniplazmada miRNA səviyyəsi müşahidə edilib. S.Muxtarova araşdırmalar zamanı uğurlu nəticələr əldə edib.

# Qaraciyər xəstəliklərinin təyinində biokimyəvi analizlərin rolu böyükdür

**Rezidentura və magistratura şöbəsi Tədris Cərrahiyyə Klinikasının Mərkəzi Laboratoriyası ilə birgə rezidentlər üçün növbəti seminar keçirib. Laboratoriyanın II kurs həkim-rezidenti Samirə Abbaszadə “Qaraciyərin biokimyası. ALT, AST, ALP, GGT” mövzusunda çıxış edib.**



Məruzəçi laboratoriyada işlənilən qaraciyərin biokimyəvi analizlərinin vacib və həyati önəm daşıyan vasitələrdən biri olduğunu söyləyib: “Qaraciyərin vəziyyətini və öz funksiyalarını necə yerinə yetirdiyini təyin etmək üçün bir çox göstəricilər yoxlanılır. Bunlardan ən çox önəm daşıyanı qaraciyərin biokimyəvi göstəriciləridir. Funksional testlərin aparılmasının məqsədi qaraciyər xəstəliklərinin aşkar olunması, differensial diaqnoz, xəstəliklərin təsnifatı və müalicəyə reaksiyanın təqibidir. Analizlərin nəticəsinin düzgün olması üçün xəstəyə əvvəlcədən qida, alkoqol, dərman qəbulu, siqaret istifadəsi haqqında məlumat verilməlidir. Çünki bütün bunlarla notransferaza (ALT); aspartat aminotransferaza (AST); onun fraksiyalarının tərkibi - qələvi fosfataza (ALP) ümumi bilirubin - qamma-glutamiltransferaza (GGT); xolestrin səviyyələrinin müəyyən edilməsi müxtəlif xəstəliklərin diaqnozunu asanlaşdıraraq, mövcud problemləri göstərə bilər. Bu o deməkdir ki, böyüklərdə qaraciyər müayinəsi üçün biokimyəvi qan testi əvəzolunmazdır. Terapiya zamanı və ya ondan sonrakı təkrar tədqiqatların aparılması, həmçinin əldə edilən nəticələrin müqayisəsi xəstəliyin dinamikasını və terapiyanın adekvatlığını qiymətləndirməyə kömək edə bilər”.

Məruzə ətrafında fikir bildirən laboratoriyanın şöbə analiz üçün nümunə götürülməsi arasındakı müddətin biokimyəvi analizlərə təsiri böyükdür”.

O vurğulayıb ki, həkim qaraciyərin vəziyyətini və öz funksiyalarını necə yerinə yetirdiyini müəyyən etmək üçün biokimyəvi qan testinin köməyi ilə daha çox məlumat əldə edə bilər: “Alanin ami-

müdiri Elxan Nağıyev təsdiqləyib ki, biokimyəvi qan testi qaraciyər patologiyasının diaqnozunda təsirli üsullardan biridir. Həkimlər qanda müxtəlif maddələrin səviyyəsini qiymətləndirərək, bədəndə baş verən proseslər haqqında lazımi məlumatlar alırlar. Bu isə xəstə ilə söhbət və müayinə zamanı əldə edilən məlumatları tamamlayır. Mütəxəssis məlumatları müqayisə edərək, dəqiq diaqnoz qoya və lazımi müalicəni təyin edə bilər.

Tədbirin moderatoru, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov yekun nitqində bilirubinin ödün vacib komponentlərindən biri olduğunu deyib. Bildirib ki, onun səviyyəsinə qırmızı qan hüceyrələrinin parçalanma sürəti, qaraciyərin hemoqlobinin parçalanma məhsullarından istifadəsinin intensivliyi və safranın sərbəst çıxma ehtimalı təsir göstərir: “Müxtəlif səbəblərdən bu proseslər pozulursa, qanda bilirubinin səviyyəsi yüksəlir. Bu, gözlərin və dərinin saralmasına səbəb olur. Çox vaxt bilirubin səviyyəsinin artması qaraciyər problemlərinin əksidir. Bilirubin üçün qan testi apararkən, ümumi bilirubini və onun fraksiyalarını - birbaşa və dolayı bilirubini təyin etmək bir normadır”.

Çıxışlardan sonra mövzu ətrafında diskussiya aparılıb, verilən suallar məruzəçi tərəfindən cavablandırılıb. Seminarda laboratoriyanın əməkdaşları, rezidentlər və tələbələr iştirak ediblər.

# Endodontik müalicənin incəliklərinə həsr olunmuş seminar baş tutub

**ATU-nun Rezidentura və magistratura şöbəsi universitetin Tədris Stomatoloji Klinikası ilə birgə rezidentlər üçün növbəti seminar keçirib.**



Tədbiri giriş nitqi ilə açan şöbə müdirinin müavini, assistent Namiq Xəlilov mövzu ilə bağlı bildirib ki, endodontik müalicə lokal (yerli) anesteziya altında tam ağrısız olaraq aparılır.

Dişin ağızda görünən tac qismindən dişin sinir təbəqəsinə (pulpa) bir yol açılır və onun çənə sümüyü içindəki kök qisminə girilir. Dişlər 1, 2, 3 və daha çox kanallı ola bilər. Kanal müalicəsi sinirlərin çıxarılması, kanalların mikroblardan təmizlənməsi və sonra genişləndirilmiş kanalların doldurulması ilə başa çatır. Sözünə davam edən N.Xəlilov vurğulayıb ki, artıq neçə ildir universitetin klinikalarında və bir sıra kafedralarda rezidentlər üçün tibbin müxtəlif sahələrinə dair seminarlar təşkil olunur. Bu seminarlar rezidentlərin gələcək iş təcrübəsində, onların peşə vərdişlərinə yiyələnməsində müsbət rol oynayacaq.

Sonra Terapevtik stomatologiya kafedrasının dosenti, t.ü.f.d. Aqil Əliyev “Endodontik müalicədə həssas məqamlar. Ağırlaşmalar və onların aradan qaldırılması” mövzusunda məruzə ilə çıxış edib. O vurğulayıb ki, müalicə zamanı hər bir stomatoloqun bilməli olduğu bir sıra həssas məqamlar var. Mühazirədə endodontik müalicənin bütün mərhələlərində yaşana biləcək çətinliklər və ağırlaşmalar haqqında geniş məlumat verilib, onların baş verməməsi üçün önəmli tövsiyələr və incəliklər izah olunub. Anesteziya prosedurunun növləri, onların təsir zonaları, pulpar boşluğa düzgün, risksiz girişlər, müvəffəqiyyətli instrumental və irriqasiya protokolun tətbiqi mütəxəssis tərəfindən şərh edilib. Həkim 30 illik təcrübəsinə əsaslanaraq, endodontik müalicə zamanı yol verilən səhvlər və fəsadların aradan qaldırılması yollarını müasir tibbin nailiyyətləri kontekstində təqdim edib.

Sonra məruzə ətrafında klinikanın direktoru, t.ü.f.d. İmran Ağayev, Terapevtik stomatologiya kafedrasının müdiri, t.ü.f.d, dosent Vaqif Həsənov və həmin kafedranın dosenti Səlimə Məmmədova fikirlərini səsləndirib, bəzən dişlərdə əyri və çətin keçilən kanalların müşahidə olunmasından bəhs ediblər. Qeyd olunub ki, prosesin dərinliyindən və formasından asılı olaraq endodontik müalicə bir və ya bir neçə seansa həyata keçirilə bilər. Tədris Stomatoloji Klinikada endodontik problemlərə diaqnoz ağızdaxili müayinə və rentgen-vizioqrafla qoyulur, ən müasir avadanlıqlar vasitəsi ilə və professional həkimlər tərəfindən müalicə olunur.

Çıxışlardan sonra mövzu ətrafında diskussiya aparılıb, suallar məruzəçi tərəfindən cavablandırılıb. Seminarda klinikanın əməkdaşları, rezidentlər və tələbələr iştirak ediblər.

# Qəfil ölümlər: infarkt necə "gizlənir"?

## Tibb elmləri doktoru Sona Qəhrəmanova ürək-damar xəstəliklərinin əsas səbəblərini və çıxış yollarını açıqlayır

**Bildiyimiz kimi, yayılmasına və ölüm faizinə görə ürək-damar xəstəlikləri yenə də ön sırada gəlir. Bəs bu xəstəliklərin yaranma səbəbləri nədir, profilaktikası, müayinə və müalicəsi necə aparılmalıdır? Bu barədə suallarımızı ATU-nun Tədris Terapevtik Klinikasının həkim-kardioloqu, Kliniki farmakologiya kafedrasının dosenti, tibb elmləri doktoru Sona Qəhrəmanova cavablandırıb.**

**- Doktor, ölkəmizdə geniş yayılan və daha çox ölümlə nəticələnən ürək xəstəlikləri hansılardır?**

- Bütün dünyada, eləcə də Azərbaycanda ən geniş yayılan və ölümlə nəticələnən ürək xəstəliklərindən ilk növbədə arterial hipertenziya və ürəyin işemik xəstəliyini göstərə bilərik. Təsadüfi deyil ki, arterial hipertenziyanı "gizli qatil" adlandırırlar. Çünki bəzən xəstələrin özləri də onlarda arterial hipertenziyanın olduğunu bilmirlər. Yalnız müəyyən fəsadlar baş verəndən sonra həkimə müraciət edirlər. Arterial hipertenziyanın əsas fəsadları miokard infarktı, beyin insultu, həmçinin böyrək funksiyasının, periferik damarların spazması nəticəsində qan təchizatının, göz dibində damarların daralması səbəbindən görmə qabiliyyətinin pozulmasıdır. Bunların sırasında daha çox ölümlə nəticələnən xəstəliklər miokard infarktı və beyin insultudur. Ağır fəsadların qarşısını almaq üçün ilk növbədə arterial təzyiqin vaxtında aşkar edilərək dərmanlarla idarə olunmasının böyük əhəmiyyəti var.

Geniş yayılaraq ölümlə nəticələnən digər xəstəliklər ürəyin işemik xəstəlikləridir. Bu xəstəliklər özünü stenokardiya formasında büruzə verir. Stenokardiyanın ağırlaşmalarından biri də miokard infarktının yaranmasıdır. Həm arterial hipertenziyanın, həm də ürəyin işemik xəstəliyinin yaranma mexanizmləri eynidir. Hər iki xəstəliyin yaranmasının əsas səbəbi damarlarda gedən patoloji proseslərdir. Yəni qanın laxtalanması, xolesterinin miqdarının çoxalması və damarların daralması nəticəsində yaranan pozulmalar hər iki xəstəliyin əsasını təşkil edir. Əgər ürəyin işemik xəstəliyi özünü stabil stenokardiya formasında göstərirsə, bu xəstələrdə döş sümüyünün arxasında yandırıcı ağrılar olur. Tipik hallarda isə ağrı sol qola, sol çiyinə və epikastral nahiyəyə vurur. Xəstəlik vaxtında aşkar olunub müalicə edilmədikdə, koronar damarın tam tutulmasına gətirib çıxarır və miokard infarktı ilə nəticələnir. Miokard infarktının yaranması o deməkdir ki, ürəyi qidalandıran damar tamamilə tutulur, həmin zonada qan təchizatının pozulması işemiyaya və ürək əzələsinin məhv olmasına gətirib çıxarır. Ürəyin əsas funksiyası isə onun yığılma qabiliyyətidir. Ürək yeganə orqandır ki, orqanizmdə nasos funksiyasını yerinə yetirir. Miokard infarktı nəticəsində ürək əzələsi məhv olduqda, onun nasos funksiyası pozulur və xəstələrdə qısa müddətdə ürək çatışmazlığı inkişaf edir. Ürək çatışmazlığı isə ürəyin bütün funksiyalarını itirməsi deməkdir. Belə xəstələrdə təngnəfəslik və ödem kimi fəsadlaşmalar yaranır və vaxtında müalicəyə başlamadıqda həyatlarını itirirlər.

Ölümlə nəticələnən digər kardiovaskulyar xəstəliklər müxtəlif növ aritmiyalardır. Ürək çatışmazlığının fəsadı kimi meydana çıxan aritmiyalar səyrici aritmiyalardır ki, uzun müddət xəstədə müşayiət olunarsa, sol qulaqcığın genişlənməsinə və bu qulaqcıqda trombun yığılmasına səbəb olur. Bu tromblar hansı səbəbdənsə ürək damarını tutarsa miokard infarktına, beyinə gedən damarı tutarsa işemik insulta, ağciyər arteriyasını tutarsa qəfil ölümə və ağciyərin tromboemboliyasına gətirib çıxara bilər. Ona görə də bu kateqoriyalı xəstələrin vaxtında aşkar edilib müalicəyə cəlb olunması çox vacibdir.

**- Son dövrlərdə gizli infarktların artdığı deyilir. Sizcə, bunun səbəbi nədir və hansı qabaqlayıcı tədbirləri zəruri hesab edirsiz?**

- Doğrudan da bəzən insanlarda gizli infarktın baş verməsi haqqında vaxtaşırı xəbərlər eşidirik. Hətta sağlamlığından heç bir şikayəti olmayan şəxslərin qəfləti ölüm halları ilə də tez-tez rastlaşırıq. Bəs bu necə olur? Əslində "gizli infarkt" anlayışı yoxdur. Deməli, həmin şəxslərin infarktdan qabaq ürəklə bağlı hansısa problemləri olub. Lakin vaxtında sağlamlıqlarına fikir vermədiklərinə görə belə fəsadlaşma yaranıb. Çünki hər bir insan individualdır. Elə insan var ki, həssasdır, özündə hər hansı bir xəstəliyin simptomu yarananda dərhal həkimə müraciət edir, lazımi laborator və instrumental müayinələrdən keçir, diaqnozu da vaxtında qoyulur. Profilaktik tədbirlərin zamanında görülməsi "gizli" dediyimiz infarktın qarşısını alır. Xəstədə miokard infarktının genetik yaranma ehtimalını da nəzərə almaq lazımdır. Qanın laxtalanma sistemində baş verən problem və xolesterinin miqdarının yüksək olması da infarktın yaranma səbəblərindəndir. Miokard infarktına daha çox kişilərdə rast gəlinməsi də səbəbsiz deyil. Stress, siqaret çəkmək, spirtli içkilərin qəbulu əsas risk faktorlarıdır. Şəkərli diabet, arterial hipertenziyanın olması da xəstələrdə miokard infarktı riskini dəfələrlə artırır. Ağrıya qarşı reseptorların həssaslığının azalması və miokarda xas tipik ağrıları özündə hiss etməməsi səbəbindən şəkərli diabeti olan xəstələr çox zaman "gizli" infarkt keçirir. Ən yaxşı halda xəstəlik müayinə zamanı aşkarlanır. Ən pis halda isə xəstələri itiririk. Gizli olan hər bir miokard infarktının səbəbi damar daralmasıdır. Hər hansı ürək-damar patologiyası, xüsusilə ən yaxın qohumlarında stenokardiya, miokard infarktı olanlar risk qrupuna daxildir. Ona görə də sadaladığım risk faktorlarını azaltmaq, piylənmənin qarşısını almaq, qabaqlayıcı tədbir kimi qanın laxtalanmasını, onun lipid spektrini yoxlamaq və elektrokardioqramma, exokardioqrafiya müayinəsi aparmaq zəruridir. Risk qrupuna daxil olan insanlar ən azı ildə iki dəfə laborator və instrumental müayinələrdən keçməlidir ki, müalicəyə vaxtında başlanılsın və xoşagəlməz hadisələrin qarşısı alınsın.

**- Cəmiyyətdə ürəklə bağlı istənilən narahatlıq ilk növbədə qan təzyiqi ilə əlaqələndirilir. Qan təzyiqinin pozulması ürəkdə hansı fəsadlar yaradır və bu fəsadların aradan qaldırılması üçün nələr vacibdir?**



- Əvvəl də qeyd etdiyim kimi, yüksək qan təzyiqi bütün ürək, qan-damar xəstəliklərində ölümün ilk səbəbidir. Arterial qan təzyiqinin qalxmasının iki əsas amilindən biri birincili və yaxud esensial hipertenziyadır. Gündəlik rastlaşdığımız arterial təzyiqli insanların 95 faizi esensialdır, yəni bu xəstələrdə əvvəlcə arterial təzyiq qalxır, sonradan hansısa orqanlarda fəsadlaşma yaranır. 4-5 faiz xəstələrdə isə simbtomatik arterial hipertenziyadır. Hansısa bir orqanda problemin yaranması nəticəsində arterial təzyiq bir simptom kimi üzə çıxır. Simbtomatik arterial hipertenziyanın müalicəsi ilk olaraq təzyiqi yaradan səbəbin aradan qaldırılmasına yönəlir. Çünki o səbəbi aradan qaldırmasaq, təzyiq aşağı düşməyəcək. Hansısa endokrin patologiya, böyrəküstü vəzin şişi, böyrək arteriyalarından qaynaqlanan hansısa problem nəticəsində yaranan hipertenziyanın müalicəsində ilk növbədə o problemin aradan qaldırılması üçün tədbirlər görülməlidir. Birincili hipertenziya ilk növbədə hədəf orqanlara öz mənfi təsirini göstərir. Sonra bütün orqanizmdə distrofik proseslər gedir. Son anda miokard infarktı, beyin insultunun yaranması, periferik qan təchizatının pozulması baş verir. Əsas hədəf orqanlardan beyin, ürək, periferik damarlar, böyrəklər və göz dibi zərbə alır. Ən asan və vacib yol arterial təzyiqi ölçüb daim nəzarətdə saxlamaq, təzyiq yüksək olduqda həkimə müraciət edib müəyyən tədbirlər görməkdir. Hazırda 120/80 normal təzyiq, 140/90-dan yuxarı arterial hipertenziya hesab olunur. Səviyyəsindən asılı olaraq hipertenziyalar 3 dərəcəyə bölünür. Ən yüksək dərəcə 3-cü dərəcədir: 180/110. Əgər sakit vəziyyətdə ölçərkən təzyiq 140/90-dan yuxarıdırsa, mütləq həkimə müraciət olunmalıdır. Həkim də ilk mərhələdə dərman təyin etmir. Çalışır ki, dietaterapiya və digər vasitələrlə risk faktorlarını aradan götürsün. Bu tədbirlər nəticə vermədikdə, müalicəyə başlanılır. Bütün fəsadlaşmaların qarşısını almaq üçün dərman preparatları mövcuddur. Amma ən vacib şərt həmin dərmanları həkim məsləhəti ilə qəbul etməkdir. Hər dərmanın öz təsir mexanizmi olduğunu heç vaxt unutmamalıyıq.

Yüksək qan təzyiqi ilk növbədə ürəyin ən böyük hissəsi olan sol mədəciyin hipertrofiyasına gətirib çıxarır. Yüksək arterial təzyiq ürəyə gələn qanın miqdarını artırdığından ürək daha yüksək iş rejimində işləyir. Ona görə də kompensator mexanizmlər ürəyi vadar edir ki, bütün gücü ilə işləsin. Nəticədə ürək əzələsi də qalınlaşaraq hipertrofiyaya uğrayır və çalışır ki, böyük təzyiqlə gələn qanı bütün orqanizmə nasos kimi çatdırsın. Amma illər keçdikcə arterial təzyiqin səviyyəsi aşağı düşmürsə, qalınlaşmış ürək əzələsinin qan təchizatı da pozulur. Orqanizmdə olan koronar damarlar qalınlaşmış miokardı qidalandırmağa gücü çatmır. Beləliklə, ürək əzələsinin oksigenə olan tələbatı ilə təchizatı arasında balans itir. Ürək əzələsi yavaş-yavaş boşalır, genişlənir, bir fəsad kimi ürək çatmamazlığı yaranır. Büzülmüş damarlarda olan yüksək təzyiq ürəyin işini çətinləşdirir, buna cavab olaraq ürək əzələsi qalınlaşır və bu qalınlaşmaya damarlar dözmür. Nəticədə stenokardiya, miokard infarktı, müxtəlif növ aritmiyalar, ürək çatmamazlığı əmələ gəlir.

**- Hansı əlamətlər ürəyin müayinə və müalicəsini zərurətə çevirir? Nə vaxt mütəxəssisə müraciət etmək mütləq lazımdır?**

- Nəslində ürək patologiyaları olan insanlar öz orqanizminə xüsusilə diqqət yetirməlidir. Hər hansı baş ağrıları, baş gicəllənməsi, ürəkdə döyüntü, döş sümüyünün arxasında yandırıcı ağrılar, qeyri-ritmik ürək döyüntüləri, təngnəfəslik, ayaqlarda ödem, qarın şişməsi kimi əlamətlər olduqda mütləq həkimə müraciət etmək lazımdır. Ürək döyüntülərinin ya çoxalması, ya azalması, ya da qeyri-adi vurması, hava çatışmazlığı aritmiyanın, ürək nahiyəsində diskomfort hissi, sıxılma, ödemlər ürək çatmamazlığının, döş sümüyün arxasında yandırıcı ağrılar stenokardiyanın əsas əlamətləridir.

Yeri gəlmişkən, bəzən insanlar bəlli bir yaşdan sonra profilaktik məqsədlə müəyyən dərmanlar, xüsusilə də qandurulducu dərmanlar içməyin vacibliyini düşünürlər. Xatırladım ki, bunu ancaq mütəxəssis təyin edə bilər. Və bu, yaşdan asılı deyil. Həm cavan, həm yaşlı şəxslər dərman preparatlarını qəbul etmədən əvvəl müayinədən keçməlidir. Özbaşına içilən dərmanlar mədə-bağırsaq problemi olan insanlarda qanaxma, yüksək qan təzyiqli xəstədə beyinə qansızma riskini artırır. Bir vaxtlar belə bir fikir vardı ki, 40 yaşdan sonra hamı kardioaspirin içməlidir. Bu fikir özünü doğrultmadı. Artıq sübuta yetirilib ki, qanlaxtalanma sistemində heç bir problem olmadıqda, qandurulducuya, həmçinin profilaktik məqsədlə digər dərmanları qəbul etməyə ehtiyac yoxdur. Ən yaxşı profilaktik tədbir xəstəliklərin yaranmasına səbəb olan risk faktorlarını aradan qaldırmaq, düzgün həyat tərzi, düzgün qidalanma və fiziki aktivlikdir.

**Arif MƏMMƏDLİ**

# Xocalıya gedirəm

**Eşitdim ki, bu gün mən –
Ziyarətə gedirəm!
Adlayaraq Ağdamı,
Əvvəlkitək ürəklə,
Keçərək Əsgəranı,
Doğma yurda gedirəm,
Xocalıya gedirəm!**

**Xocalı şəhərini,
Onun daş-kəsəyini,
Dağların ətəyini,
Nərgiz, bənövşəsini –
Qızıl gül ləçəyini,
Mən öpməyə gedirəm,
Xocalıya gedirəm!**

**Xocalı gədiyimi,
Qanadlı şimşəyimi,
Titrəyən ürəyimi,
Badam çiçəklərimi,
Göyərtməyə yenidən –
Dirçəltməyə gedirəm,
Xocalıya gedirəm!**

**Xocalı körpəsinin,
Qocasının, gəncinin,
Dünyadan köçəninin,
İtkin düşənlərinin –
Ruhun sevindirməyə,
Şad etməyə gedirəm,
Xocalıya gedirəm!**

**Hayın cinayətini,
Hayın xislətlərini,
Davam edən məkrini,
Leyla "Ədalət!"ini,
Car çəkməyə aləmə -
Göstərməyə gedirəm,
Xocalıya gedirəm!**

**Ürəyimi Dankotək –
Məşəl edib gedirəm!
Meşələri, dağları,
Yara-yara gedirəm.
Bütün qaranlıqlara –
Nur saçmağa gedirəm,
Xocalıya gedirəm!**

**613-lərin,
Soyqırım şəhidinin,
Həm şəhid, həm qazimin,
Məğrur əzəmətinə,
Baş əyib, diz çökməyə –
İbadətə gedirəm,
Xocalıya gedirəm!**

**Mübariz Allahverdiyev
23.02.2024**

# Müharibə dövrünün könüllü həkimi

## İstedadlı tələbəmiz Günəş Əliyeva hər sahədə uğur qazanmağı bacarır



**Azərbaycan Tibb Universitetinin istedadlı tələbələrindən biri də Günəş Əliyevadır. Hələ orta məktəbdə oxuduğu illərdə tədbirlərdə fəal iştirak edib. Yeri düşəndə məlahətli səsi ilə mahnı oxuyub, rəsm əsərləri çəkib, tədbirlərdə aparıcılıq edib, eyni zamanda müxtəlif müsabiqələrin qalibi olub.**

2000-ci ildə Bakıda anadan olan Günəş 207 saylı tam orta məktəbdə birinci sinfə gedib. Sonra təhsilini 3 saylı orta məktəbdə və Bakı Slavyan Universitetinin Məktəb-lisey kompleksində davam etdirib, 284 saylı məktəbi bitirib. Hazırda ATU-nun I Müalicə-profilaktika fakültəsinin sonuncu kurs tələbəsidir.

Qəhrəmanımız bildirir ki, orta məktəbdə oxuduğu illərdə bir çox rəsm, qiraət və inşa müsabiqələrində iştirak edib, müxtəlif nominasiyalar üzrə təltif olunub və birinciliklər qazanıb: “Məktəbdə keçirilən bütün tədbirlərdə təşkilatçı və aparıcı rollarda olmuş, hətta liseydə təhsil aldığım dövrlərdə universitetin təşkil etdiyi elmi konfranslarda iştirak etmişəm.

Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının yaradılmasında rolu olanlardan biriyəm. Bir müddət təşkilat rəhbərinin müavini vəzifəsində fəaliyyət göstərmişəm. Fəaliyyətim universitet rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib və Azərbaycan Gəncləri Günündə təltif olunmuşam”.

Bununla kifayətlənməyən G.Əliyeva universitetdəki fəaliyyətini daha da genişləndirib. Həkim Qaşe adına Rəsm klubu və “İrəli” İB yaradıb: “Qrup yoldaşım və rəfiqəm Aysel Cabirlə birgə “Sağlamlıq” klubu da açdıq, 2 ilə yaxın klub bizim rəhbərliyimizlə fəaliyyət göstərdi. Çalışdığım təşkilatlarda xeyli faydalı işlər gördüyümü düşünürəm”.

O, həmçinin könüllülük fəaliyyəti ilə də məşğul olub. 2020-ci ildə Bakıda keçirilən UEFA Avropa çempionatında könüllü kimi iştirak edib: “Fəaliyyətim çərçivəsində MUN-la tanış oldum. Qeyd edim ki, MUN - Model United Nation modelidir. Tələbələr bu konfranslarda BMT-yə üzv ölkələrin rəhbər şəxsləri kimi həmin ölkələrin adından çıxış edib qətnamələr qəbul edirlər. BMT-nin Azərbaycan tərəfdaşlığı, Gənclər və İdman Nazirliyi və ATGTİ-nin təşkilatçılığı ilə AzMUM hərəkatı başladı və mən də fürsətdən yararlanaraq, ATU-da AMUN-u yaratdım. AMUN-un ilk konfransını “Süd vəzi xərçəngi ilə mübarizə”yə həsr etdik və Hande Harmancının tibb tələbələri ilə görüşü təşkil olundu”.



Günəş Əliyeva Vətən müharibəsi zamanı da könüllü tələbələrimizdən olub. Nümunəvi xidmətinə görə, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəhbərliyi tərəfindən Fəxri Fərmanla təltif olunub.

O, 2020-ci il sentyabrın 28-dən etibarən adıçəkilən hospitalın Toroko-abdominal cərrahiyyə şöbəsində, sonra isə Travmatologiya şöbəsində könüllü fəaliyyət göstərib. Həmin dövrdə bir neçə tələbə yoldaşını da hospitalda fəaliyyətə cəlb edib. Müharibə vaxtı hospitalda müalicə alan bir çox qazilərlə tanış olub. Yaddaşında onlarla bağlı iz salmış xatirələrini bizimlə də bölüşdü: “Travmatologiya şöbəsinə yeni yaralı gəlmişdi, qışqırırdı ki, "neçə gün neytralda qalmışam, kömək gec gəldi...". Bu zaman qolu, ayağı sarıqlı bir yaralı onun yanına gəldi və "neytral deyilən ərazi yoxdur, hamısı öz torpaqlarımızdı... Kömək gəlməyəcək, sən orda qalacaqsan, sənə köməyə gəlmək üçün neçə oğulun ölməsindənsə, özün orda qalıb şəhid olacaqsan. Qışqırmağını kəs!" - dedi. Bu sözlərdən sonra o yaralı bir daha danışmadı...

Polkovnik-leytenant var idi, Tunayev. Əməliyyatdan sonra narkozun təsirindən sayıqlayırdı: “Şəxsi heyətimə deyin, yolu düşmənə verməsinlər, möhkəm dursunlar”.

Mayor Axundov yadımdadı. Onu ilk dəfə yaralananda Toroko-abdominal cərrahiyyə şöbəsinə gətirmişdilər, o zaman mən də orda çalışırdım. İkinci dəfə yaralananda Travmatologiya şöbəsinə gətirmişdilər, bu dəfə də mən orda işləyirdim. Bizim ikinci dəfə rastlaşıb bir-birimizi tanımağımız maraqlı anlardan biri idi. Mənə dedi ki, “balaca qız, sən hansı şöbədə olursan, mən də yaralanıb o şöbəyə gəlirəm, daha get evinizə, mən də yaralanıb xəstəxanaya gəlməyim".

O dövrdə yaddaşıma həmişəlik həkk olunmuş çox xatirələr var. Hospitalın yeməkxanasında çalışan və fədakarlıq göstərən xalaları da unutmaram. Onlar çox mehriban idilər. İş o qədər çox olurdu ki, bəzən yeməyə vaxtından 4-5 saat sonra gedirdim. Xalalar da bunu bilir, mənə hər dəfə yemək saxlayırdılar”...

Tələbəmizə bundan sonrakı peşəkar və ictimai fəaliyyətində uğurlar arzulayırıq!

**Qabil ABDULLAYEV**


FƏXRİ FƏRMAN

tələbə

ƏLİYEVA GÜNƏŞ ANAR qızı

KÖNÜLLÜ OLARAQ VƏTƏN MÜHARİBƏSİNDƏ YARALANAN HƏRBİ QULLUQÇULARA TİBBİ YARDIM GÖSTƏRİLMƏSİNDƏ YAXINDAN İŞTİRAK ETDİYİNƏ GÖRƏ

TƏLTİF OLUNUR

Silahlı Qüvvələrin Baş Klinik Hospitalı rəisinin vəzifəsini icra edən

tibb xidməti polkovniki Vüqar Mürsəlov

10.12.2020-ci il

# “II Hippokrat kuboku” turniri baş tutub



Universitetimizin Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi “Nə? Harada? Nə zaman?” intellektual oyunu üzrə tələbələrarası “II Hippokrat kuboku” turniri keçirilib. İntellektual Oyunlar Klubunun üzvlərindən ibarət “Sinaps” komandasının təşkilatçılığı ilə baş tutan yarışda müxtəlif universitet tələbələrindən ibarət 15 komanda iştirak edib.

24 sualdan ibarət turnirdə kuboku “Vendetta” komandası qazanıb. İkinci və üçüncü yerləri isə müvafiq olaraq “Data Qorqud” və “Rust in Peace” komandaları tutublar. Qaliblər ATU Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılıb. Komitənin sədri Qoşqar İsmayılov və “Sinaps” komandasının üzvləri qalibləri təbrik edib.

**Bu günlərdə Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) üzvləri "Nur" uşaq evini ziyarət edib.**

# THİK-in nümayəndələri uşaq sığınacağını ziyarət edib



Yardım məqsədilə təşkil olunan ziyarətdə THİK-in sədr müavini Zivər Hüseynova, Əczaçılıq fakültəsi üzrə sədri Məhəmməd Nəzərli, müavini Gülnar Hacıyeva, eləcə də tələbələr Sərvinaz Namazova, Ayişə Məmmədova və ATU-nun Kadrlar şöbəsinin əməkdaşları Ruzanna Bəşirova, Mədinə Allahverdiyeva iştirak ediblər.

# “Dünyama faydam” layihəsinin üzvləri kimsəsiz uşaqlara baş çəkib

**ATU Tələbə Gənclər Təşkilatının Hərbi tibb fakültəsi üzrə sədri və eyni zamanda “Dünyama faydam” sosial-ictimai layihəsinin üzvü Nəriman İskəndərov Qurban bayramı münasibətilə layihə üzvləri ilə birlikdə Qadın və Uşaq Sığınacağı evini ziyarət edib.**



Tədbir iştirakçıları valideyn himayəsindən məhrum olmuş uşaqları sevindirmək üçün zəruri ərzaq malları alıb, onlara dəstək olmaq və bayramlarını daha yadda qalan etmək məqsədilə həmsöhbət olublar. Balacaları öz diqqət və qayğıları ilə sevindirən ziyarətçilərin “gələcəkdə kim olmaq istəyirsən” sualına uşaqların cavabları maraqlı olub. Onlar müxtəlif peşələrin adını çəkiblər. Uşaqları öz hədəflərinə çata biləcəklərinə inandıran layihə üzvləri onları əyləndirmək məqsədilə bir sıra oyunlar təşkil edib, xatirə hədiyyələri veriblər.

## Bizə yazırlar

# Xeyirxahlıq unudulmur

**İnsan nə qədər ki gəncdir, ona elə gəlir ki, həmişə sağlam olacaq, heç vaxt xəstələnməyəcək. Lakin təbiətin də öz hökmü, qayda-qanunları var. Günlərin birində insan xəstələnir, şəfa tapmaq üçün həkimə müraciət etmək ehtiyacı yaranır.**

Biz də bu yolu keçməli olduq. Müalicə almaq üçün yolumuz Mərdəkandakı Respublika Müharibə və Əmək Veteranları Xəstəxanasına düşdü.

Doğrusu, hər tərəfdən şam ağacları ilə əhatə olunmuş bu sanatoriya-xəstəxana öz gözəlliyi, səliqə-sahmanı ilə ilk andan adamı valeh edir. Qəbuldan başlanan ciddi daxili qayda-qanun və pasiyentlərə qarşı səmimi rəftar isə bu sağlamlıq ocağı haqqında daha xoş təəssürat yaradır.

Xəstəxananın baş həkimi Nicat Cəlilov, terapiya şöbəsinin müdiri Gülnarə Mirzəliyeva və həkim Saleh Quliyev hər bir xəstəyə ayrı-ayrılıqda diqqət ayırır, lazımi köməklərini əsirgəmirlər.

Xəstəxananın tibb bacıları Şəhla Əslixanova, Turanə Seyidova, Yeganə Muxtarova, Şərqiyyə Həsənquluyeva və Arzu xanım hər birimizə cani-dildən xidmət göstərirlər.

Ehtiyatda olan polkovniklər Nurəddin və Zeynalabdin, eləcə də şəfa ocağında müalicə alan Qarabəy, Balabəy, Saleh, Xanmirzə və Ağamalı da tibbi personalın peşəkarlığından, xeyirxahlığından məmnunluqla söhbət açırlar.

Çox hörmətli “Təbib” qəzetinin redaksiya heyəti!

Qürur hissi ilə bildiririk ki, barələrində razılıqla danışdığımız həkimlər Azərbaycan Tibb Universitetinin məzunlarıdır. Bu ali təhsil ocağının mətbu orqanı olduğunuza görə, sizdən xahiş edirik ki, bizim təşəkkürümüzü Mərdəkanda yerləşən Respublika Müharibə və Əmək Veteranları Xəstəxanasının tibbi personalı ilə yanaşı, həkim andına sadiq peşəkar kadrlar yetişdirən ATU-nun gözəl kollektivinə də çatdırasınız.

**Hörmətlə: Saleh Aslanov, Qarabəy Ağayev**

## Allah rəhmət eləsin!

Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov və kafedranın əməkdaşları **professor Zöhrab Qarayevin** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Reyhan Bəylərovaya qardaşı **İlqar bəyin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın assistenti Elmar Əliyevə atası **professor Məmməd Əliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0012
Sayı 800